# Cənnət Qarabağa aparan rahat yollar




***İşğaldan azad olunan ərazilərimizdə geniş vüsət alan abadlıq-quruculuq işləri ölkəmizin iqtisadi qüdrətinin real təcəssümüdür***

**möhtəşəm
ınu yüksəlt-
enidən bax-
ı, gələcək in-
turi vəzifələr
n vəzifələrin
aparılan iq-
atı 3 dəfə ar-
ükdür. İşğal-
ısı istiqamə-
başlanması-**

Aprelin 12-də birinci rübün yekunlarına həsr olunan müşavirədə ilin üç ayında ölkəmizin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirən, nəticələri keçən il əldə edilmiş nailiyyətlərin davamı kimi qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyev vurğulayıb: "Postmünaqişə dövrünün birinci ilinin nəticələri deməyə əsas verir ki, qarşımızda duran bütün vəzifələr icra edilmişdir. Digər infrastruktur layihələrinə gəldikdə isə deyə bilərəm ki, Bərdə-Ağdam dəmir yolunun inşası bu il davam edir. Yəqin ki, gələn il istifadəyə veriləcəkdir. Bununla paralel olaraq, Ağdamda və Füzulidə dəmir yolları, vağzalları da inşa edilməlidir".

Ölkə başçısı daha sonra qeyd edib ki, nəqliyyat infrastrukturu ilə bağlı digər məsələ Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsidir. Bu da bu ilə nəzərdə tutulur. Azad edilmiş torpaqlarda bu, Füzulidən sonra ikinci beynəlxalq hava limanı olacaq. Laçın Beynəlxalq Hava Limanının inşası 2024-cü ilə planlaşdırılır. Böyük Qayıdış proqramının birinci mərhələsində həyata keçirilən ilk layihələrdən biri Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yollarının yenidən qurulmasıdır.

**(davamı 3-cü səhifədə)**

# Cənnət Qarabağa aparan rahat yollar

(əvvəli 1-ci səhifədə)

Tərtər şəhərindən Suqovuşan kəndinə qədər olan yol 21 kilometr, Suqovuşandan Talış kəndinə doğru uzanan yol 7,5 kilometrdir. Artıq 2-ci texniki dərəcəyə uyğun olaraq bu yollar bərpa edilmişdir. Dövlət başçısının tapşırığına əsasən Füzulidən Şuşaya yeni avtomobil yolunun çəkilişi sürətlə aparılır. İcrasına başlanılan digər bir yol Toğanalı-Kəlbəcər yoludur. Çox çətin relyefdə çəkilən bu yol Kəlbəcərdən Laçına qədər davam edəcək, eyni zamanda, Horadizdən Zəngilana, oradan Qubadlıya və Laçına qədər yolun çəkilişi həyata keçiriləcək. Dağlıq ərazilər arasında bu yollar vasitəsilə kommunikasiya əlaqəsi yaradılacaq və bu da öz növbəsində bölgənin başdan-başa iqtisadi dirçəlişinə, məskunlaşma prosesinin başlanmasına, turizmin inkişafına geniş imkanlar açacaq.

İşğaldan azad olunmuş ərazilərlə bağlı həyata keçirilən nəqliyyat layihələrindən biri də Bərdə-Ağdam dəmir yolunun yenidən qurulmasıdır. Dövlət başçısının müvafiq sərəncamına əsasən, Bərdə-Ağdam dəmir yolu xəttinin tikinti-quraşdırma işlərinə 2020-ci ilin dekabrında start verilib. Yol xəttinin uzunluğu 47,1 kilometrdir. Layihə çərçivəsində 4 stansiyanın, 3 körpünün, ümumilikdə 100-dən çox süni mühəndis qurğunun tikintisi planlaşdırılır. Dəmir yolu xətti minalandığından tikinti-quraşdırma işləri minatəmizləmə prosesinə paralel həyata keçirilir. Bərdə-Ağdam dəmir yolunun tikintisinin 2023-cü ildə yekunlaşdırılması nəzərdə tutulur. Füzuli-Şuşa istiqamətində ilk dəfə inşa ediləcək birxətli elektrikləşdirilmiş dəmir yolu xəttinin ox üzrə uzunluğu 83,4 kilometrə bərabərdir. Layihə çərçivəsində iki yeni stansiya - Füzuli və Şuşa stansiyalarının, habelə 200-ə yaxın süni mühəndis qurğularının layihələndirilməsi və tikintisi planlaşdırılır. Hazırda dəmir yolu xəttinin trassasının ümumilikdə topoqrafik tədqiqat işləri tamamlanmışdır və süni mühəndis qurğularının layihələndirilməsi işləri davam etdirilir.

Təməli dövlət başçısı tərəfindən qoyulan Horadiz-Ağbənd dəmir yolu xəttinin ümumi uzunluğu 100 kilometrdir, strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək. İşğaldan azad edilmiş ərazilərdə yol infrastrukturunun yenidən qurulması və müasirləşdirilməsi istiqamətində genişmiqyaslı tikinti işləri aparılır. Bu cür layihələrdən biri olan Şükürbəyli-Cəbrayıl-Hadrut yeni avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. Ötən il martın 15-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarına səfəri zamanı Şükürbəyli-Cəbrayıl-Hadrut yeni avtomobil yolunun təməlqoyma mərasimindən dərhal sonra layihənin icrasına start verildi. Dövlət başçısının tapşırığına əsasən, sözügedən avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla inşa edilir. 4 hərəkət zolaqlı olmaqla yolboyu 6 avtomobil körpüsü və 11 yeraltı keçidin də tikintisi aparılır. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Cəbrayıl rayonunun Şükürbəyli kəndindən keçən hissəsindən götürməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinə qədər uzanır. Tikintisi aparılan yolun uzunluğu 39.7 kilometrdir.

Əhmədbəyli-Füzuli-Şuşa yolunun təməli ötən ilin yanvarında qoyulub. Yeni layihəyə əsasən, çətin relyefə malik olan ərazilərdə, dolaylarda inşa ediləcək körpü və tunellər hesabına yolun uzunluğu 84.6 kilometr təşkil edəcək. Bundan başqa, yeni trassa üzrə müxtəlif səviyyəli yol qovşaqlarının inşası da nəzərdə tutulub. Prezident İlham Əliyev keçən il iyunun



14-də yolun Daşaltı kəndinin ərazisindən keçən hissəsində tikiləcək tunelin təməlqoyma mərasimində iştirak edib. Ümumilikdə, yol boyu 7 tunel tikilir.

İşğaldan azad edilmiş ərazilərdə icra olunan yol infrastrukturu layihələrindən biri də Toğanalı-Kəlbəcər-İstisu avtomobil yoludur. Göygöl və Kəlbəcər rayonlarını birləşdirən Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun layihə uzunluğu 80.7 kilometr təşkil edir. Yol 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Layihənin 16 kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 m-dən Murovdağ zirvəsinədək - 3250 m-ə qədər artır. Burada mövcud yoldan istifadə ediləcəyi təqdirdə həddindən artıq sürüşmə zonalarına rast gəlinir. Bu ərazilərdə inşa ediləcək dolaylara (serpantin) əlavə özül əsaslı istinad divarları tikilsə belə, qış fəslində güclü qar və şaxtalı hava şəraitində yolun təhlükəsiz istismarı mümkün olmaya bilər. Bu üzdən çətin relyefə malik ərazidə 31.5 kilometrlik yolun tikilməsi əvəzinə bu hissənin Murovdağ silsiləsinin altından 11.7 kilometrlik tunellə keçilməsi daha məqsədəuyğun hesab edilib. Murovdağ silsiləsindən sonra 2830 və 460 metr uzunluqlara malik daha 2 avtomobil tunelinin inşası da nəzərdə tutulur. Beləliklə, yolboyu ümumi uzunluğu 15 kilometrə yaxın olan 3 tunel tikiləcək. Tunellər bir istiqamət üzrə 2 hərəkət zolaqlı və 12 metr enində olacaq.

Azad olunan bölgələrdə sürətlə icra olunan daha bir yol layihəsi Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoludur. Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla sözügedən rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək.

Aprel ayından etibarən Azərbaycanın azad olunmuş ərazilərində Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisinə də başlanıb. Bu avtomobil yolu həm də strateji əhəmiyyəti ilə seçilir. Çünki sözügedən yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Yeni Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu işğaldan azad edilmiş Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının ərazisindən keçir və hazırda inşası aparılan Əhmədbəyli-Füzuli-Şuşa, Şükürbəyli-Cəbrayıl-Hadrut və Xudafərin-Qubadlı-Laçın avtomobil yolları başlanğıcını məhz bu yoldan götürür. Azərbaycan hökuməti Bərdə şəhərindən Ağdama qədər dəmir yolu ilə yanaşı, yeni avtomobil yolunun da tikintisinə başlayıb. Yolun uzunluğu 44,5 kilometr təşkil edəcək.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun uzunluğu 66 kilometr təşkil edəcək. Sözügedən yolun Xanlıq yaşayış məntəqəsindən ayrılaraq Qubadlı şəhərinə qədər 17 kilometr uzunluğunda yeni avtomobil yolunun da inşası nəzərdə tutulub. Layihələndirilən yolların ümumi uzunluğu 83 kilometrdir. Yeni Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yolları işğaldan azad edilmiş Zəngilan, Qubadlı və Laçın rayonlarının ərazisindən keçir. Avtomobil yolu Qubadlı və Laçın şəhərləri də daxil olmaqla, sözügedən rayonların 30-dan artıq yaşayış məntəqəsini əhatə edəcək.

***İşğaldan azad olunan ərazilərimizdə geniş vüsət alan abadlıq-quruculuq işləri ölkəmizin iqtisadi qüdrətinin real təcəssümüdür***

Azərbaycan Prezidenti İlham Əliyev ötən il oktyabrın 3-də Tərtər rayonunda Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoyub. Tərtərin Talış kəndindən Goranboy rayonunun Tapqaraqoyunlu kəndini keçməklə Naftalan şəhərinə doğru yeni yolun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişini təmin etməklə bərabər bölgənin sosial-iqtisadi inkişafına töhfə verəcək. Bu yolun istifadəyə verilməsi nəticəsində Tərtər şəhəri ilə yanaşı, alternativ olaraq Naftalan şəhərindən də bu istiqamətdə hərəkət etmək mümkün olacaq. Yolun ümumi uzunluğu 22 kilometr təşkil edəcək.

Dövlətimizin başçısının işğaldan azad edilmiş ərazilərimizə hər səfərində gələcəklə bağlı planları özündə əks etdirən çıxışı hər kəsdə qürur hissi doğurur, Böyük Qayıdışın tezliklə reallaşacağına əminlik yaradır.

Sözügedən müşavirədə də dövlət başçısı əminliklə bildirib: "Beləliklə, keçmiş məcburi köçkünləri qaytarmaq üçün kompleks tədbirlər görürük. Yaşayış binaları, infrastruktur, iş yerləri, kənd təsərrüfatı ilə məşğul olmaq imkanları, sənaye parkları - biz planlı şəkildə bu işləri görəcəyik. Bu, ancaq azad edilmiş torpaqlarda bu il görüləcək işlərin siyahısıdır və əminəm ki, bütün planlar həyatda öz əksini tapacaq. Biz istədiyimizə nail olacağıq".

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2022.- 29 aprel.- S.1;3.